# Qəbələ gəncləri hərbi xidmətə yola düşdülər



5 iyul 2024-cü il tartixdə Qəbələli gənclərin hərbi xidmətə yola salınması münasibətilə tədbir keçirilib. Tədbirdə Qəbələ RİH-nin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, çağırışçıların valideynləri və ictimaiyyət nümayəndələri iştirak edib. Tədbir iştirakçıları və çağırışçı gənclər əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzmüşlər. Heydər Əliyev parkında davam edən tədbirdə çıxış edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsinin rəisi polkovnik-leytenant Lətif Heydərov ölkəmizdə ordu quruculuğu sahəsində qazanılan uğurlardan, 44 günlük müharibədə Azərbaycan oğullarının igidliklərindən bəhs etmişdir. Çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Azərbaycanda Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğunun bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən böyük məharətlə davam etdirilməsi nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin regionun ən güclü və qüdrətli ordusuna çevrildiyini diqqətə çatdırmış, gənclərə bu şərəfli missiyanın yerinə yetirilməsində uğurlar arzulamışdır. Tədbirdə valideynlər adından Xanalıyev Babək, çağırışçılar adından Dağlar Məsimov çıxış etmişdir. Tədbir gənclərin rəqsləri və musiqi ilə davam etmişdir. Sonda çağırışçı gənclər Azərbaycan bayrağı qarşısında baş əyərək böyük ruh yüksəkliyi ilə hərbi xidmətə yollanmışlar.

# Vətəndaş qəbulu



12 iyul 2024-cü il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə keçirilən qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin, eləcə də digər vətəndaşların müraciətləri, irəli sürdükləri təkliflər dinlənilmiş, qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən bu cür diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Səyyar qəbullar


Bayramkoxalı kəndi.




Savalan kəndi.


Yeni Dizaxlı kəndi.


Soltannuxa kəndi.

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin iyul ayında səyyar qəbullar Bayramkoxalı, Savalan, Yeni Dizaxlı və Soltannuxa kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**"Qəbələ".**
**Fotolar S. Umuyevindir.**

# "Gənc xilasedici" Beynəlxalq yarışı, "Gənc xilasedici və yanğınsöndürən"

İyunun 30-da Qəbələ şəhərində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə X "Gənc xilasedici" Beynəlxalq yarışı və XI "Gənc xilasedici və yanğınsöndürən" Ümumrespublika birinciliyinin final mərhələsinin açılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri general-polkovnik Kəmaləddin Heydərov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Elm və Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin yerli idarələrinin nümayəndələri, ümumilikdə respublika üzrə 18 komanda və beynəlxalq iştirakçılardan ibarət 6 komanda (Azərbaycan, Rusiya, Qazaxıstan, Özbəkistan, Gürcüstan və Belarusdan olan komandalar), Vətən müharibəsi şəhidlərinin övladları və ailə üzvləri, media və ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbirə Azərbaycan Respublikasının Dövlət bayrağının meydana gətirilməsi və Dövlət himninin səsləndirilməsi ilə start verilib. Mərasimdə çıxış edən Fövqəladə Hallar nazirinin müavini general-leytenant Adil Abdullayev yeniyetmə və gənclərin milli vətənpərvərlik, xalqına və dövlətinə sədaqət ruhunda yetişməsi məsələsinə xalqımızın ümummilli lideri Heydər Əliyevin hər zaman xüsusi həssaslıqla yanaşdığını vurğulayaraq bu yarışın gənclərdə fövqəladə hallarla mübarizə sahəsində əməli vərdişlərin formalaşması ilə yanaşı, bu istiqamətdə beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsində mühüm rol oynadığını qeyd edib. Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev yarışların əhəmiyyətindən, yeniyetmə və gənclərin fövqəladə hallarla mübarizə sahəsində yeni təcrübələr əldə etməsindən danışmış, tədbir iştirakçılarına uğurlar arzulamışdır. Sonra yarışlara qatılmış komandaların təntənəli keçidi baş tutub. Builki yarışa respublikanın müxtəlif bölgələrindən olan 19 nəfər şəhid övladı dəvət olunub.



* * *

İyulun 6-da Fövqəladə Hallar Nazirliyi tərəfindən təşkil olunmuş "Gənc xilasedici" Beynəlxalq yarışına və "Gənc xilasedici və yanğınsöndürən" Ümumrespublika birinciliyinə yekun vurulub.

Beynəlxalq yarışda birinci yeri Rusiya, ikinci yeri Azərbaycan, üçüncü yeri isə Belarusun komandası tutub. Ümumrespublika birinciliyində isə birinci yerə Bakı şəhəri 53 nömrəli tam orta məktəb, ikinci yerə Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli xüsusi internat məktəbi, üçüncü yerə isə Gəncə şəhəri 14 nömrəli tam orta məktəbin komandası layiq görülüb.